| | | | |
|---|---|---|---|
| **Yanvar** | **Fevral** | **Mart** | **Aprel** |
| **May** | **İyun** | **İyul** | **Avqust** |
| **Sentyabr** | **Oktyabr** | **Noyabr** | **Dekabr** |

# YANVAR

**11 yanvar** İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonu qəbul etmişdir.

**15-16 yanvar** **Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti Birləşmiş Ərəb Əmirliklərində işgüzar səfərdə olmuşdur.**

**15 yanvar** Əbu-Dabidə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olmuşdur.

Vaxtanq Kikabidzenin doğmalarına və yaxınlarına Gürcüstan xalqının böyük oğlu, görkəmli müğənni, aktyor və rejissor Vaxtanq Kikabidzenin vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**16 yanvar** Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində çıxış etmişdir.

Qırğız Respublikasının Prezidenti Sadır Japarova Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təbrik məktubu göndərmişdir.

**17-20 yanvar** **Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasında səfərdə olmuşdur.**

Davosda Niderlandın "Damen Shipyards Group" şirkətinin icraçı direktoru və səhmdarı Arnout Damen ilə görüşü olmuşdur.

Davosda "CISCO" şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix ilə görüşü olmuşdur.

Davosda "Fortescue Future Industries" şirkətinin sədri Endrü Forest ilə görüşü olmuşdur.

Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibə vermişdir.

**18 yanvar** Davosda "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşü olmuşdur.

Davosda "Kromatix SA" şirkətinin baş icraçı direktoru Rafik Hanbali ilə görüşü olmuşdur.

Davosda "Signify" (əvvəlki adı "Philips Lighting") şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşü olmuşdur.

Davosda "Carlsberg Group" şirkətinin prezidenti və baş icraçı direktoru Kes t`Hart ilə görüşü olmuşdur.

Davosda Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olmuşdur.

Davosda BP Qrupunun baş icraçı direktoru Bernard Luni ilə görüşü olmuşdur.

Davos Dünya İqtisadi Forumu çərçivəsində "Yeni enerji reallığının istiqamətləndirilməsi" mövzusunda keçirilən dəyirmi masada iştirak etmişdir.

Davosda BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərif ilə görüşü olmuşdur.

**18 yanvar** Davosda Latviya Respublikasının Prezidenti Egils Levits ilə görüşü olmuşdur.

Ukraynanın Prezidenti Volodimir Zelenskiyə Kiyev vilayətinin Brovarı şəhərində helikopterin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

Çin Xalq Respublikasının Sədri Si Cinpinə qarşıdan gələn Bahar bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

**19 yanvar** Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) birinci vitse-prezidenti Yurgen Riqterink ilə görüşü olmuşdur.

Davosda "Adani Group" şirkətinin təsisçisi və sədri Qautam Adani ilə görüşü olmuşdur.

Davosda Monteneqronun Baş naziri Dritan Abazoviç ilə görüşü olmuşdur.

Davosda Dünya İqtisadi Forumunun sədri Klaus Şvab ilə görüşü olmuşdur.

Davosda Avropa İttifaqının (Aİ) büdcə və administrasiya üzrə komissarı Yohannes Han ilə görüşü olmuşdur.

Davosda Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə görüşü olmuşdur.

Davosda Niderland Krallığının Baş naziri Mark Rutte ilə görüşü olmuşdur.

Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya Orta Dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasının moderatorunun suallarını cavablandırmışdır.

**26 yanvar** Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Ann Buayonun etimadnaməsini qəbul etmişdir.

Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Xristos Kapodistriasın etimadnaməsini qəbul etmişdir.

Meksika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Mariya Viktoriya Romero Kabalyeronun etimadnaməsini qəbul etmişdir.

**27 yanvar** Dünyanın aparıcı maliyyə şirkətlərindən biri olan “Brookfield Asset Management” şirkətinin baş icraçı direktoru Brüs Flətti qəbul etmişdir.

Ölkəmizin Tehrandakı səfirliyinə xain hücumla əlaqədar tviterdə paylaşım etmişdir.

**28 yanvar** ***Azərbaycan Respublikasına səfərə gələn Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin rəsmi qarşılanma mərasimi olmuşdur.***

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə təkbətək görüşü olmuşdur.

Azərbaycan və Misir prezidentlərinin geniş tərkibdə görüşü olmuşdur.

Geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan və Misir prezidentləri mətbuata bəyanatlarla çıxış etmişdilər.

**28 yanvar** Azərbaycan Respublikasının Prezidentinin adından Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin şərəfinə nahar verilmişdir.

**29-30 yanvar** **Macarıstanda rəsmi səfərdə olmuşdur.**

**30 yanvar** Budapeşt şəhərinin Layoş Koşut meydanında rəsmi qarşılanma mərasimi olmuşdur.

Budapeştin Qəhrəmanlar meydanında naməlum əsgərin məzarını ziyarət etmişdir.

Macarıstan Prezidenti xanım Katalin Novak ilə təkbətək görüşü olmuşdur.

Budapeştdə Macarıstan Prezidenti xanım Katalin Novak ilə geniş tərkibdə görüşü olmuşdur.

Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə məhdud tərkibdə görüşü olmuşdur.

Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü olmuşdur.

Budapeştdə Azərbaycan Respublikasının Prezidentinin Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Macarıstan sənədləri imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidenti və Macarıstanın Baş naziri Viktor Orban Budapeştdə mətbuata bəyanatlarla çıxış etmişdilər.

Budapeştdə Azərbaycan Respublikasının Prezidentinin şərəfinə Macarıstanın Baş naziri Viktor Orban tərəfindən verilmiş rəsmi naharda çıxış etmişdir.

# F E V R A L

**1 fevral**

Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul etmişdir.

**2 fevral**

***Azərbaycan Respublikasına rəsmi səfərə gələn Rumıniya Prezidenti Klaus Yohannisin rəsmi qarşılanma mərasimi olmuşdur.***

Rəsmi qarşılanma mərasimindən sonra Rumıniya Prezidenti Klaus Yohannis ilə təkbətək görüşü olmuşdur.

Azərbaycan və Rumıniya prezidentlərinin geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan və Rumıniya prezidentləri mətbuata bəyanatlarla çıxış etmişdilər.

Azərbaycan Respublikasının Prezidentinin adından Rumıniya Prezidenti Klaus Yohannisin şərəfinə rəsmi ziyafət verilmişdir.

Pakistan İslam Respublikasının Prezidenti Arif Alviyə Peşəvər şəhərindəki məsciddə törədilmiş partlayış nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Laura Loxmanı qəbul etmişdir.